

**XANIM EYNULLAQIZI**

### AZƏRBAYCAN

Qov üstündən qara-qara buludları
Dağlarının sinəsində parıldasın düm ağ qarı
Zəfərlərin sevindirsin dostu, yarı
Yüksəklərdə meh əsdirsin bayraqları
Azərbaycan, Azərbaycan

Sevincinə şərik olsun qocaları, cavanları
Xəzərinin sinəsində coşub daşsın dalğaları
Azad olsun düşmənlərdən o müqəddəs ocaqları
Qoy yazılsın şərəfinə hey qələbə mahnıları
Azərbaycan, Azərbaycan

Həsətindən qoy çatlasın düşmənlərinin bağrı
Meydanlarda şığısın Qarabağın nər atları
İgidlərə kömək olsun hər bir zaman ulu Tanrı
Dastanlara yazılsın qəhrəmanların adları
Azərbaycan, Azərbaycan

Məscidlərdə dua etsin ataları, anaları
Fəxarət hissi ilə böyütsünlər uşaqları
Qarabağın düzlərində məclis qursun cavanları
Hər tərəfə yayılsın qoy qələbə sədaları
Azərbaycan, Azərbaycan

### AZƏRBAYCANLIYAM

Aranlıyam, dağlıyam, əsli Lənkəranlıyam
Bakılıyam, ya da Qarabağlıyam
Ürəyimlə, canımla bu torpağa bağlıyam
Fəxr edirəm Azərbaycanlıyam

Sevincinə sevinən, kədərinə ağlayan
Vətənin hər dərdinə sinəsini dağlayan
Mən cismimlə, ruhumla vətənimə bağlıyam
Fəxr edirəm Azərbaycanlıyam

Hər qarışı məhəbbətlə çağlayan
İnsanları sevgiylə qucaqlayan
Nə xoş ki, mən bu vətənin övladıyam
Fəxr edirəm Azərbaycanlıyam

### AZƏRBAYCAN DİLİM

Tarixlərdən bizə yadigar qalan
Xoş günlərdən müjdə verən, gələcəyə aparan
Xalqı bir-birinə möhkəm bağlayan
Mənim Vətən dilimdir Azərbaycan dilim
Dilim atamın, anamın dilidir
Dilim doğmaca balamın dilidir
Bu dil min mahnılı, min nəğməlidir
Mənim Vətən dilimdir Azərbaycan dilim
Analar bu dildə laylalar çalar
Yazılar nağıllar, bayatılar, qoşmalar
Bu dildən şairlər min ilham alar
Mənim Vətən dilimdir Azərbaycan dilim
Elə bil bu dildə çağlayır çaylar, bulaqlar
Bu dildə oxunur həzin-həzin muğamlar
Bu dildə edilir neçə gözəl dualar
Mənim Vətən dilimdir Azərbaycan dilim
Bu dildə oxuyuruq, biz bu dildə yazırıq
Bu dildə ətrafla ünsiyyət yaradırıq
Dilimizi özümüzlə bərabər yaşadırıq
Mənim Vətən dilimdir Azərbaycan dilim
Bu dildə öyrənmişik ana Vətən deməyi
Sevdiklərimizə min yol can-can deməyi
Bu dildə öyrənmişik Azərbaycan deməyi
Mənim Vətən dilimdir Azərbaycan dilim

### YAŞASIN AZƏRBAYCAN

Sənə mən hər zaman can-can deyirəm
Hüsnünə hər kəsi heyran deyirəm
Xalqım olsun firavan deyirəm
Yaşasın Azərbaycan deyirəm

Dərdini öz dərdimə tən deyirəm
Dil açandan ana Vətən deyirəm S
əmanda olmasın duman, çən deyirəm
Yaşasın Azərbaycan deyirəm

Uzaq olsun səndən qüssə, qəm deyirəm
Üzün olsun hər zaman şən deyirəm
Hər yerin, hər yanın gülşən deyirəm
Yaşasın Azərbaycan deyirəm

Əməlinlə ucalasan deyirəm
Qazan hər an şöhrət, şan deyirəm
Canımı canına qurban deyirəm
Yaşasın Azərbaycan deyirəm

### AZƏRBAYCAN GÖZÜN AYDIN

Nə bəlalar keçdi sənin başından
Oğurladılar torpağından, daşından
Şəhid verdin oğulundan, qızından
Şükür olsun haqq savaşın qazandın
Azərbaycan gözün aydın

Bu savaşda nər oğlu nər döyüşdü
Savaşları qələbəyə dönüşdü
Şəhidlərin ruhuna işıq düşdü, nur düşdü Ş
ükür olsun haqq savaşın qazandın
Azərbaycan gözün aydın

Səpələnmiş insanların öz yurduna qovuşdu
Söndürülmüş çıraqları yandırıldı alışdı
Azad xalqın sevincləri bir birinə qarışdı
Şükür olsun haqq savaşın qazandın
Azərbaycan gözün aydın

Çətin gündə dost dediyin ələndi
Dost ölkələr köməkçün növbələndi
Vətənimiz azadlığa bələndi
Şükür olsun haqq savaşın qazandın
Azərbaycan gözün aydın

Qüdrətinlə qalib adını aldın
Zəfərlərdən, zəfərlərə ucaldın
Yenilməz bütöv bir Azərbaycan oldun
Şükür olsun haqq savaşın qazandın
Azərbaycan gözün aydın

### AZƏRBAYCAN-TÜRKİYƏ

Bayrağında ulduzu var, ayı var
Şad günündə dostların da payı var
Atalardan yadigar yıxılmaz sarayı var
Azərbaycan-Türkiyə
Dini bir, imanı bir, dili bir, amalı bir
Qəlbləri bir döyünür milləti bir, qanı bir
Kədərinə şərik olur, sevincinə sevinir
Azərbaycan-Türkiyə
Belə getsə dostluğu günü-gündən möhkəm olar
Dar gündə, çətin gündə bir-birinə dayaq durar
Vəhdətlə işlər qurar qələbələr qazanar
Azərbaycan-Türkiyə

### VƏTƏNİMƏ YARAŞIR

Nə gözəldir Yurdumun çölləri çəmənləri
Bağları bağçaları ağacların barları
Şirin-şirin yetişir heyvaları narları
Düzlərdə çiçək açır arılar bal toplayır
Sərçələr cikkildəşir toyuqlar qaqqıldaşır
Meşədəki çayların suları aşır daşır
Ətirli bağçalarda gül gül ilə yarışır
Bu gözəl mənzərələr vətənimə yaraşır.

### EY VƏTƏN

Şer dolu bir dünyayam
Ulduz kimi göylərində parlayaram
Günəş kimi üzərinə nur yayaram
Ey Vətən
Şimşək kimi çaxaram
Yağış kimi yağaram
Sinən üstə axaram
Ey Vətən
Dağlarına düşən qaram
Torpağını qucaqlaram
Sənsiz yaşamağım haram
Ey Vətən
Sənin adın ilə varam
Hər an oduna yanaram
Mən səninlə bəxtiyaram
Ey Vətən

### VƏTƏNDİR

Ayağımı basdığım hər qarışım Vətəndir
Vətən sözü mənim üçün öz canım ilə təndir
Göz açdığım yer Vətən, böyüdüyüm yer Vətəndir
Hər yana qanad açsam, son ünvanım Vətəndir
Bulaqlarda çağlayan bol çeşməli suyumdur
Tükənməyən ruzimdir, süfrəmdə çörəyimdir
Allahın bəxş etdiyi mənim Vətən payımdır
Hər yana qanad açsam son ünvanım Vətəndir
Vətən mənim anamdır, Vətən mənim atamdır
Hər an əzizlədiyim, oxşadığım balamdır
Vətənim mənim üçün özü boydana dağdır
Hər yana qanad açsam son ünvanım Vətəndir
Dar gündə kədərimdir, şad gündə sevincimdir
Göz açandan Vətənim ilk andım, ilk eşqimdir
Ölkələr arasında qüdrətlidir, mətindir
Hər yana qanad açsam son ünvanım Vətəndir

### VƏTƏNİNİ YAXŞI TANI

Möhkəm bağlan hər daşına torpağına
Vətənini yaxşı tanı
Toxun xəzəl olmuş yarpağına
Xışıltısını dinlə hiss et o anı
Ayaq basdığın hər yerdə bir iz qoy
Ağacların yarpağının ləçəyinin ətrini duy
Zümrüd gözlü bulaqların suyundan iç
Dərəsindən, dağından keç
Dağ döşünə səpələnmiş laləni, bənövşəni tax qara telə
Şəlalənin şaqqıldayan səsini dinlə
Budaqlarda cikkildəşən nəğmə deyən quşlara bax
Çaylarından sel kimi ax
İpək kimi yosununun, mamırının üzərindən yavaşca keç
Kol kosundan bir cığır aç
Düzənlikdə nər atların kişnəməsi

Davamı 9-cu səhifədə

Əvvəli 8-ci səhifədə

Heyran eyləsin qoy səni
Xalı kimi göy çəməni
Dağlarının başında qar
Salamlayır onu buludlar
Yar keç dumanı, çəni
Seyr et gözəl mənzərəni
Yol boyunca sıralanmış uca boylu çinarları
Bağlarında hər cür barı
Gəz doyunca bu yerlərdə min zövq ilə
Ürək də ilhama gəlsin min şövq ilə
Xəzərinin laylasına qulaq as
Sahilində şəfalı qumlarına ayaq bas
Sal qayadan qartalların qıy vurar
Baxdıqca bu mənzərəyə ürək qürurla vurar
Gəz bu vətən mülkünü sən qədəm-qədəm
Otları dərdlərə məlhəm
Bu ellərdə bir aləmdir axşam, səhər
Salxım söyüdün altında nəfəsini dər
Seyrinə dal bağçalarda qızıl gülün çiçəyin
Sev əzizlə qoxla hər bir ləçəyin
Gəz vətənin ellərini obasını
Ud şəfalı havasını
Dinlə qoca nənələri, babaları
Ataların, anaların əlindən öp qoy göz üstə
Onlardan bir dua istə
Bax bu yurdun ismətli qızlarına
Nər kimi qeyrətli oğullarına
Kiçiklərin başına bir sığal çək
Beşikdəki körpələrin nazını çək.

### BAKI HAQQINDA

Səmasında qağayılar dəstə-dəstə süzərlər
Bulvarında neçə-neçə gözəlləri gəzərlər
Xəzərimin sularıyla ətirlənər dincələr
Nə gözəldir gündüzləri gecələri Bakımın

Bağlarında ağacların neçə-neçə barı var
Ənciri var, heyvası var, şanısı var, narı var
Məclislərdə muğamı var, kamanı var tarı var
Nə gözəldir gündüzləri gecələri Bakımın

Könül istər gecə-gündüz bu şəhərə nəğmə qoşa
Nemətləri saymaq ilə gəlməz başa
Binaları, körpüləri hər biri bir tamaşa
Nə gözəldir gündüzləri gecələri Bakımın

### XƏZƏRİM

Meh əsdikcə sərin-sərin
Rəqs eyləyir mirvari tək ləpələri
Nə gözəldir gündüzləri, gecələri
Möcüzəli bir aləmdir Xəzərim
Sularında balıqları üzərlər
Sahilində uşaqları, qocaları gəzərlər
Mənzərəyə min rəng qatar həm igidlər, gözəllər
Möcüzəli bir aləmdir Xəzərim
Min məlhəmdir mavi gözlü suları
Şəfalıdır sahilində yeddi rəngli qumları
Gah yatar, gah da coşar o şıltaq dalğaları
Möcüzəli bir aləmdir Xəzərim
Bir başqadır kükrəyəndə daşanda
Bir özgədir qayası da daşı da
Bir aləmdir ləpələri bir birinə qovuşanda
Möcüzəli bir aləmdir Xəzərim
Neft daşları başdan başa tamaşa
Buruqların saymaqla gəlməz başa
Hər qarışı nemətlərlə aşar, daşar
Möcüzəli bir aləmdir Xəzərim
Hər dalğası nəğmə, şeir
Gecə gündüz hüsnünü hey eylə seyr
İnsanlara elə yaşa-yaşa deyir
Möcüzəli bir aləmdir Xəzərim.

### LƏNKƏRANIM

Havası xoş suyu sərin
Səfalıdır meşələrin
Dağlarında dərin, dərin
Dərəsinə qurban olum
Lənkəranım, Lənkəranım

İsti suyu cana dərman
Şəfalıdır hər qədəmin
Şəlaləsi buz tək sərin
Tərəsinə qurban olum
Lənkəranım, Lənkəranım

Hər qarışın bir hikmətdir
Başdan-başa məhəbbətdir
Allah verən bir cənnətdir
Cənnətinə qurban olum
Lənkəranım, Lənkəranım

Dağlarında kəklik ötər
Meşəsində bənövşə bitər
Bülbül gülə dil-dil ötər
Güllərinə qurban olum
Lənkəranım, Lənkəranım

Süfrədə çayı limonlu
Bağlarında qızıl gülü
Talışıdı onun dili
Dillərinə qurban olum
Lənkəranım, Lənkəranım

Torpağı min nemət verir
Neçə cəngavər yetirir
Xan bəylərin məskənidir
Məskəninə qurban olum
Lənkəranım, Lənkəranım

Oğulları qeyrətlidir
Xanımları ismətlidir
Həzilərin vətənidir
Həzisinə qurban olum
Lənkəranım, Lənkəranım

Ataları çörək verib
Anaları ürək verib
Neçə-neçə şəhid verib
Şəhidinə qurban olum
Lənkəranım, Lənkəranım

Xanım deyər yüz il yaşa
Bu dağları aşa-aşa
Dənizi də bir tamaşa
Bərəsinə qurban olum
Lənkəranım, Lənkəranım

### QARABAĞNAMƏ

30 ildə nələr nələr çəkdi başın
Qızıl qana bələndi suyun, torpağın, daşın
Daş üstündə qoymadılar bir daşın
Ümidini itirmədin Qarabağ
Məscidlərin, ocaqların talandı
Binaların yandırıldı, yağmalandı
Bulaqların, çeşmələrin qan aldı
Ümidini itirmədin Qarabağ
Qoca nədir, cavan nədir, uşaq nə?
Doğradılar atdılar
Halal nədir, haram nədir, haqq nədir, nahaq nə?
Bir-birinə qatdılar
Şərəf nədir, qeyrət nədir, namus nə?
Bu dığalar özlərini satdılar
Ümidini itirmədin Qarabağ
Xarıbülbül sinəsini dağladı
Boynu bükük lalələrin bağrı yara bağladı
Qurumuş ağacların, tikanların ağladı
Ümidini itirmədin Qarabağ
Neçə-neçə ruhlar narahat qaldı
Məzarlardan haray-haray ucaldı
Buludlar göy üzündən bu matəmə layla çaldı
Ümidini itirmədin Qarabağ
Yadellilər qədir, qiymət bilmədi
Xəcalətdən utanmadı, ölmədi 30 ildə haqq yoluna gəlmədi
Ümidini itirmədin Qarabağ
İgidlərin, ərənlərin harayına yetişdi
Əsgərlərin, qazilərin haqq yolunda savaşdı
Azadlığın yolunda minlərlə şəhid düşdü
Ümidini itirmədin Qarabağ
Aç yaralı qollarını övladların sarılsın
Tikanların yerini artıq gül, çiçək alsın
Elin, oban yığışsın, evlər, binalar salsın
Görüşünə gəlirik, gözün aydın Qarabağ
Qarşıla övladını, qucaqla öp üz-gözünü
Gözəl günlərlə apar yaraların izini
Qəhrəman oğlun dedi qətiyyətlə sözünü
Görüşünə gəlirik, gözün aydın Qarabağ
Qoynunda yurd salmağa elin, oban gəlir
Torpağına, suyuna yeni nəfəs, can gəlir
Qollarını geniş aç anan Azərbaycan gəlir
Görüşünə gəlirik, gözün aydın Qarabağ

### QARABAĞA GEDİRƏM

Ürəyimdə min arzu, min dilək
Yaralı torpağıma qovuşmağa gedirəm
Sinəmdə rahat durmur bu ürək
Öz yurdumun halını soruşmağa gedirəm
Qarabağa gedirəm

Gedirəm o yerlərdə salam bağçalar, bağlar
Yenidən pöhrələnsin ordakı xan çinarlar
Tikilsin gözəl evlər uca-uca binalar
Yaralı torpağımı sağaltmağa gedirəm
Qarabağa gedirəm

Nənə babalarımın ruhunu yaşatmağa gedirəm
Nəslimi, soyumu artırmağa gedirəm
Dərindən öz torpağıma kök atmağa gedirəm
Yarımçıq arzularıma çatmağa gedirəm
Qarabağa gedirəm

### GÖZÜN AYDIN QARABAĞIM

Şükür olsun ərənlərin torpağından düşmənləri qovladı
O qaniçən əliqanlı murdarları ovladı
Zalımların, xainlərin əl-qolunu bağladı
Gözün aydın Qarabağım, qara üzün ağ oldu

Bu savaşda bütün millət sənin dayağın oldu
Hər şəhərdən, hər bir kənddən igidlərin dəstə-dəstə yığıldı
Dağ kimi arxanda duran Azərbaycan oldu
Gözün aydın Qarabağım, qara üzün ağ oldu

Sənin azad olmağın düşmənlərin ürəyinə tikan oldu, dağ oldu
Haqsız yerə torpağında bardaş quran yersizlərin tifaqları dağıldı
Yandırılmış torpaqların bağça oldu, bağ oldu
Gözün aydın Qarabağım, qara üzün ağ oldu

2024